# AZƏRBAYCANDA YARASALARIN (CHIROPTERA BLUMENBACH, 1779) SON TƏDQİQAT NƏTİCƏLƏRİ HAQQINDA

**Nicat Həsənov, Gülnar Quliyeva**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Zoologiya İnstitutu,*
*hasnijat1212@gmail.com*

Yarasalar dəstəsinin Azərbaycanda sistematik tədqiqi İ.K.Raxmatulina tərəfindən keçən əsrin 70-ci illərindən etibarən həyata keçirilmişdir. Mövcud kadastr xəritələrində 28 yarasa növünün qeydə alınma məntəqələri göstərilir, sonrakı nəşrlərdə daha 4 növün (*Myotos mystacinus* – bığlı gecə şəbpərələri qrupundan olan kriptik növlər) ölkə ərazisində mövcudluğu barədə məlumat verilir və qeydə alınma yerləri bildirilir.

2019-2022-ci illər ərzində tərəfimizdən aparılmış çöl tədqiqatları zamanı Neftçala, Lənkəran, Qax, Mərəzə, Qobustan, Şəki, Zagatala, Qəbələ, Ağcabədi, Goranboy, Naxçıvan MR ərazilərində yarasaların akustik və ənənəvi üsullarla (vizual müşahidə, transektlər boyu marşrut uçotları, fiziki şəkildə tutulması, həyat fəaliyyəti izlərinin qeydə alınması və s.) tədqiqi həyata keçirilmiş, yeni koloniyaları və ya sığınacaqları qeydə alınmışdır. Ümumilikdə 75 gün/gecə tədqiqat işləri aparılmış, 138 tor qurulmuş (12 m, 8 m, 6 m), 13 növə aid 740 fərd yarasa fiziki şəkildə tutularaq ölçülmüş, 9 yarasa növü üzrə stasionar və mobil detektorlarla minlərlə ultrasəs qeydə alınaraq xüsusi proqramla işlənmişdir. Bununla yanaşı, sığınacaq kimi ehtimal edilən onlarla çardaq, tikili, mədən tunelləri, mağaralar, körpü, ağac koğuşları və s. nəzərdən keçirilmişdir. Tədqiqatlar bütün fəsillərdə, xüsusilə yarasaların fəal olduğu mart-sentyabr aylarında icra edilmişdir.

İlk dəfə olaraq Qobustan və Xızı ərazilərində *Myotis alcatoe* (alkato gecə şəbpərəsi) növü və bu növün yay sığınacaqları qeydə alınmış, 10 fərd tutulmuşdur. Bu növün ölkəmizdə mövcudluğu səs qeydlərinə görə ehtimal olunurdu. Azərbaycanda xiropterafaunanın iri ölçülü növlərindən olan *Myotis blythii* – itiqulaq gecə şəbpərəsinin ən böyük 3 koloniyası Şuşa, Azıx mağaralarından və Şamaxıdan məlumdur (Raxmatulina, 2005). Min fərddən artıq yeni çoxalma koloniyası (balalarla birlikdə) ilk dəfə olaraq Mərəzə ərazisində 2021-ci ildə tərəfimizdən aşkar edilmişdir. Bu mağara növ tərəfindən uzun illərdir yay və qış sığınacağı kimi istifadə olunur. Eyni növün 900-1100 fərddən ibarət balalama koloniyası 2007-ci ildə və təkrar olaraq 2021-ci ildə Naxçıvan MR Ordubad rayonunun Biləv kəndində də qeydə alınmışdır (Raxmatulina, Həsənov, 2009). Bu sığınacaqda yarasalar bir qayda olaraq, aprel-oktyabr aylarında yerləşirlər və bəzən *Miniopterus schreibersii* (adi uzunqanad yarasa) ilə eyni sığınacağı bölüşürlər. İlk dəfə olaraq Qax şəhərində tikililərdə boyuk nalburun (*Rhinolophus ferrumequinum*), kiçik nalburun (*R.hipposideros*) və üçrəng gecə şəbpərəsinin (*Myotis emarginatus*) müvafiq olaraq 30, 110, 500 fərddən ibarət yay koloniyaları tərəfimizdən aşkar edilmişdir. Bu tikililərin daha əlçatmaz yerlərinin qış sığınacağı kimi istifadəsi də güman edilir. Zaqatala rayonunun Mazıx kəndində böyük nalburunun 75 fərddən ibarət yay koloniyası da ilk dəfə olaraq aşkar edilmişdir.

2020-2021-ci illər ərzində Qobustan və Xızı rayonlarının həmsərhəd ərazilərində Çaylı və Sitalçay qəsəbələri ətrafındakı stasionarlarda quraşdırılmış səsyazma cihazları 3-4 ay ərzində bu ərazilərdə *Plecotus auritus* (qonur palazqulaq), *Barbastella* caspica (Xəzər enliqulağı), *Nyctalus noctula* (kürən axşam yarasası), *N.leisleri* (kiçik axşam yarasası), *Pipistrellus nathusii (meşə şəbpərəsi), P.kuhlii* (küli şəbpərəsi), *Hypsugo savii* (savi şəbpərəsi), *Vespertilio murinus* (ikirəng gönlücə), *Eptesicus serotinus* (dağ gönlücəsi) növlərinin davamlı və çoxsaylı ultrasəslərini qeydə almışdır. Qeyd etmək lazımdır ki, bu iki ərazidə xüsusi olaraq heç bir tədqiqat işi aparılmamış və yalnız *P.kuhlii* növü ərazinin (Sitalçay) dominant yarasa növü kimi ədəbiyyatda göstərilmişdir. Lənkəran rayonunun Balıqçılar qəsəbəsində (Qızılağac MP-nın yaxınlığı*) P.kuhlii, P.nathusii* və *P.pipistrellus* növlərindən olan yüzlərlə fərdin birgə istifadə etdiyi yay sığınacağları qeydə alınmışdır. Qəbələ rayonunun Sa-

valan kəndində *Eptesicus ognevii* (səhra gönlücəsi) növünün onlarla tək-tək fərdlərinin yer aldığı yay sığınacaqları (körpülərdə) aşkar edilmişdir. Bu növ ədəbiyyatda yalnız Xaldan, Sabirabad, Qobustan, Mingəçevir, Qanıxçay və Əyriçay mənsəbləri üçün göstərilmişdir (Raxmatulina, 2005).

İllər öncə (2010-2012) Şəki rayonunun Şorsu kəndində qeydə aldığımız *M.blythii* və *R.ferrumequinum* növlərinin iri koloniyalarının sığındığı hərbi hissə dağıdılmış, yaxınlıqdakı yeraltı sığınacaqlardan birində isə *R.ferrumequinum* (böyük nalburun), *R.mehelyi* (meheli nalburunu), *M.blythii* (itiqulaq gecə şəbpərəsi), *M.emarginatus* (üçrəng gecə şəbpərəsi), *P.pipistrellus* (cırtdan şəbpərə) növlərinin birgə koloniyaları 2021-ci ildə tərəfimizdən qeydə alınmışdır.

Zaqatala Dövlət Qoruğu ərazisində cırtdan şəbpərənin yüzlərlə fərddən ibarət balalama koloniyası aşkar edilmişdir.

Davam etdirilən tədqiqat işləri yeni yarasa koloniyalarının və ya ayrı-ayrı növlərinin əvvəllər müşahidə olunmadığı ərazilərdə qeydə alınması məqsədini daşıyır. Akustik metodlar yeni-yeni tədqiqat imkanları açır. Ölkəmizin yarasalar faunasının daha dərindən tədqiqi, kadastr xəritələrinin yenilənməsi həm elmi baxımdan, həm də mühafizə tədbirlərinin görülməsi sahəsində böyük əhəmiyyətə malikdir. 2019-2021-ci illərdə aparılmış tədqiqatların həyata keçirilməsində göstərdikləri köməkliyə görə EcoHealth Alliance, WAB-Net və DTRA təşkilatlarına minnətdarlığımızı bildiririk.